**AUDİT 2023, 2 (40), səh. 67-73.**
**AUDIT 2023, 2 (40), pp. 67-73.**
**АУДИТ 2023, 2 (40), стр. 67-73.**

**DOI: 10.59610/bbu2.2023.2.7**

*Həsənova Nərmin Ehtibar qızı,*
*doktorant,*
*Gəncə Dövlət Universiteti,*
*E-mail: nermin.hesenova@gdu.edu.az*
*© Həsənova N.E., 2023*

**UOT:330;338**

# İXRACYÖNÜMLÜ İSTEHSALIN QEYRİ-NEFT İQTİSADİYYATININ İNKİŞAFINDA ROLU

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi –** qeyri-neft iqtisadiyyatının inkişafında ixracyönümlü istehsalın rolunun müəyyənləşdirilməsi.

**Tədqiqatın metodologiyası –** tədqiqat işinin yerinə yetirilməsi zamanı elmi ümumiləşdirilmə, analiz, sintez, müqayisə və s. tədqiqat metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti –** beynəlxalq inteqrasiya şəraitində ixrac potensialının inkişaf etdirilməsi, o cümlədən ixracyönümlü məhsulların istehsalı üçün parametrlərin, amillərin və ehtiyatların müəyyənləşdirilməsi qeyri-neft sahələrinin fəaliyyətinin prioritetlərindən hesab olunur. Bu baxımdan müasir çağırışlara uyğun olaraq qeyri-neft sektorunda struktur dəyişikliklərinin əsas hədəfi ölkənin beynəlxalq bölgü sisteminə üzvi şəkildə daxil olmasının və ixrac potensialından maksimum istifadə edilməsinin təmin edilməsinə əsaslanır.

**Tədqiqatın nəticələri –** qeyri-neft iqtisadiyyatında ixracyönümlü istehsalın rolunun müəyyənləşdirilməsi üçün tədqiqat aparılmış və qeyri-neft iqtisadiyyatında artımın stimullaşdırılması istiqamətləri təklif olunmuşdur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi –** qeyri-neft sektorunun inkişaf tendensiyalarının və ixracyönümlü istehsal sahələrinin qeyri-neft iqtisadiyyatının inkişafındakı rolu müəyyən edilmişdir.

**Açar sözlər:** iqtisadi artım, ixrac, rəqabətqabiliyyətli istehsal, inteqrasiya, ticarət dövriyyəsi, şaxələndirmə.

## G İ R İ Ş

Dünya iqtisadiyyatının hazırkı inkişaf tendensiyası, qlobal iqlim dəyişiklikləri və dərinləşməkdə olan ərzaq problemləri qeyri-neft sahələrinin iqtisadi inkişafdakı rolunu daha da artırır. Nəzərə almaq lazımdır ki, davamlı iqtisadi artım üçün qeyri-neft iqtisadiyyatı ciddi potensiala-intellektual kapitala, fundamental və tətbiqi elmlərə, rəqabətqabiliyyətli texnologi-

AUDİT 2023, 2 (40), səh. 67-73.
AUDIT 2023, 2 (40), pp. 67-73.
АУДИТ 2023, 2 (40), стр. 67-73.

yalara, iqtisadi resurslara, istehsal və kommunikasiya infrastrukturuna malik olmalıdır. Beynəlxalq inteqrasiya şəraitində qeyd edilən potensialı özündə birləşdirən qeyri-neft sahələrinin fəaliyyətinin prioritetlərindən biri dövlət tərəfindən dəstəklənən və stimullaşdırılan ixrac fəaliyyətidir. İxrac potensialının inkişaf etdirilməsi sistemində ixracyönümlü məhsulların istehsalı üçün parametrlərin, amillərin və ehtiyatların formalaşdırılması dövlətin iqtisadi siyasətində əsas yerlərdən birini tutur [6, s. 641]. Xarici ticarətinin inkişafı ticarət dövriyyəsinin daim artan həcmini şərtləndirir. Buna görə də iqtisadi sferada dəyişikliklərin əsas hədəfi ölkənin beynəlxalq bölgü sisteminə üzvi şəkildə daxil olması üçün iqtisadiyyatın yenidən qurulması və səmərəliliyinin artırılması vasitəsi kimi ixrac potensialından maksimum istifadə etməkdir.

**Qeyri – neft iqtisadiyyatında ixracın potensialının inkişafı**

Əslində hər bir dövlətin iqtisadi inkişafı onun beynəlxalq əmək bölgüsündə fəal iştirakından asılıdır. Bununla bağlı dünya iqtisadi münasibətləri sisteminə səmərəli şəkildə daxil olmaq dərin struktur və texnoloji transformasiyaları təmin edir ki, bu da öz növbəsində ixracyönümlü sahələrin formalaşması və inkişafı zərurətini diktə edir. İxrac yönümlü əlaqələrin genişləndirilməsi innovativ inkişafa nail olmaq, bazar infrastrukturunun yaradılması, investisiya potensialının artırılması, istehsal sahələrinin rəqabətqabiliyyətliliyinə və məhsulun keyfiyyətinə nail olmaq, beynəlxalq meyarlara uyğun olaraq istehsal sahələrinin inkişaf etmiş əmtəə münasibətlərinə uyğunlaşma dərəcəsini artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, xarici iqtisadi əlaqələrin səmərəliliyinin yüksəldilməsi yalnız daxili istehlak üçün deyil, həm də ixrac üçün istehsalın inkişafından asılıdır. Bu, ümumilikdə ixrac yönümlü istehsalın inkişaf prioritetlərini və ixrac potensialından daha səmərəli istifadə imkanlarını müəyyən etməyə imkan yaradır. İxrac potensialı iqtisadiyyatın həm daxili inkişaf vəzifələrini nəzərə almaqla dünya bazarına rəqabətədavamlı məhsul istehsal etmək və tədarük etmək, həm də ixracda dinamik dəyişiklik etmək və müxtəlif məhsulların ixracını artırmaq qabiliyyətini əhatə edir [4, s.233].

Son illər xarici ticarət strategiyasında da başlıca məqsəd məhsul və xidmətlərin ixracının artımını, ixracın və ixrac yönümlü istehsalın şaxələndirilməsini və xarici ticarətdə tarazlığın təmin edilməsini nəzərdə tutur. Qeyd edilənlərə uyğun olaraq qeyri-neft sahələrində ixracın inkişafının hədəf prioritetləri kimi aşağıdakıları qeyd etmək olar: ixracın dəstəkənməsi və inkişafı mexanizminin yenidən qurulması; ənənəvi bazarlardan perspektivli bazarlarla keçidin təmin edilməsi; ixracın coğrafiyasının genişləndirilməsi və beynəlxalq bazarlarda ixrac yönümlü sahələrinin möhkəmləndirilməsi; beynəlxalq iqtisadi inteqrasiyanın inkişafı; subyektlərin ixrac cəlbediciliyinin artırılması; qeyri-neft iqtisadiyyatının davamlı inkişafı üçün əhalinin rifahının yüksəldilməsi; xarici iqtisadi əlaqələrin davamlı olaraq təkmilləşdirilməsi və s.

Araşdırmalar göstərir ki, xarici ticarət qeyri-neft iqtisadiyyatının inkişafına çoxşaxəli şəkildə təsir göstərir. Bu ilk növbədə, xarici ticarətin aşağıdakı funksiyalarında özünü göstərir: ixrac yönümlü istehsalın inkişafı üçün zəruri olan mənbələrin formalaşdırlması və səmərəli istifadəsi; xarici istehsal amillərinin strukturunu dəyişmək və şaxələndirmək; istehlak ehtiyaclarına, istehsal vasitələrinin yığılmasına və əvəzinin ödənilməsinə uyğunlaşma qabiliyyətində

**AUDİT 2023, 2 (40), səh. 67-73.**
**AUDIT 2023, 2 (40), pp. 67-73.**
**АУДИТ 2023, 2 (40), стр. 67-73.**

özünü göstərən transformasiya funksiyası; dayanıqlı effekt yaradan funksiya: gəliri maksimum dərəcədə artırmaq, istehsal üçün əmək xərclərini azaltmaq, əmək məhsuldarlığını artırmaq, istehsalın kapital tutumunu azaltmaq və s.

Qeyri-neft sahələrində xarici ticarətin inkişafına aşağıdakı amillər müsbət təsiri ilə xarakterizə olunur: məhsul növləri və satış bazarları kontekstində fiziki ifadədə ixrac tədarükü həcminin artması; satış bazarlarında struktur dəyişiklikləri; ixrac potensialının yüksəldilməsi; ixracın təşviqi və dəstəklənməsi tədbirləri və s. Həyata keçirilən belə tədbirlər kəskin rəqabət şəraitində belə xarici bazarlarda etibarlı mövqe tutmağa və uğurlu rəqabət aparmağa zəmin yaradır. Qeyd etmək lazımdır ki, ixrac potensialının inkişaf perspektivləri, ixracyönümlü məhsulların istehsalı və satışının həcminin artırılması elmi-texniki potensialın reallaşdırlması vəziyyətindən və səmərəliliyindən asılıdır. Bu kontekstdə ixracyönümlü istehsalın artırılmasında istehsal ehtiyatları da əvəzsiz rolu ilə seçilir [2, s.29]. Göstərilənlər nəticə etibarilə özünü, ilk növbədə, iqtisadi inkişafda biruzə verir.

Təhlillər göstərir ki, son illər həyata keçirilən tədbirlər nəticəsində qeyri-neft sahələrində ümumi daxili məhsul istehsalı ümumən artmışdır.




***Diaqram. İqtisadi fəaliyyət növləri üzrə ümumi daxili məhsul istehsalı, cari qiymətlərlə, milyon manatla [7].***

Belə ki, 2017-ci illə müqayisədə 2021-ci ildə iqtisadi fəaliyyət növləri üzrə ümumi daxili məhsul istehsalı kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 38,4%, emal sənayesində 91,7%, ticarət; nəqliyyat vasitələrinin təmirində 29,2% artmış, turistlərin yerləşdirilməsi və ictimai iaşədə 30,1% azalmışdır [diaqram].

**AUDİT 2023, 2 (40), səh. 67-73.**
**AUDIT 2023, 2 (40), pp. 67-73.**
**АУДИТ 2023, 2 (40), стр. 67-73.**

İxracla bağlı məlumatların tədqiqi göstərir ki, 2017-ci ildə qeyri-neft sektoru məhsullarının ixracı əvvəlki illə müqayisədə (faktiki qiymətlərlə) 24,5%, 2018-ci ildə 11,6%, 2019-cu ildə 13,9%, 2021-ci ildə 38,4%, artmış, 2020-ci ildə bu göstərici 4,9% azalmışdır [7].

**İxracyönümlü istehsal və iqtisadi artım arasındakı əlaqə.**

İqtisadi artım nəzəriyyələri çərçivəsində xarici ticarətin iqtisadi artım templərinə müsbət təsirini sübut edən bir çox yanaşmalar mövcuddur. İqtisadi artım öz növbəsində yeni texnologiyaların tətbiqini və ixracın artmasını stimullaşdıran əsas amillərdən hesab olunur. Ona görə də xarici ticarət əlaqələrinin genişləndiyi şəraitdə ölkənin xammal bazarlarından asılılığını azaltmaqla idxalın əvəzlənməsinə ehtiyac kəskin şəkildə özünü göstərir. Eyni zamanda idxalın ixracla əvəzlənməsi siyasətinin effektivliyi daxili bazarın tutumundan asılı olur. Beləliklə, dünya iqtisadiyyatının inkişafında yaranan tendensiyaları nəzərə alaraq qeyd etmək olar ki, ixracyönümlü xammal modelini idxalı əvəz edən hazır məhsulların ixracı modelə çevirmək hazırda iqtisadi siyasətin əsas hədəfini təşkil etməlidir. Şübhəsiz ki, bu model məhdud səviyyədə idxalın əvəzlənməsinə yönəlməməli, ilk növbədə, strateji əhəmiyyətli bazarlarda xarici ticarət mövqelərinin qoruyub saxlanılmasını təmin etməlidir. Bu baxımdan, qeyri-neft sahələrində iqtisadi artımı və ixracın genişləndirilməsini şərtləndirən aşağıdakı amilləri fərqləndirmək olar: coğrafi yerləşmə və təbii-iqlim şəraiti; iqtisadiyyatın strukturunu müəyyən edən təbii resurslarla təmin olunma səviyyəsi; iqtisadiyyatının ixracyönümlülüyü; demoqrafik amillər və s. Beləliklə, "iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalıdır, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir" [1].

Təcrübə göstərir ki, hazırda qeyri-neft iqtisadiyyatının müəyyən qədər ixrac yönümlülüyünə baxmayaraq, "davamlı inkişaf" və iqtisadi azadlıq prinsipləri tam şəkildə özünü reallaşdıra bilmir. Nəticədə maksimum əlavə dəyər əldə etməyə imkan verən ixrac məhsulları istehsalında çətinliklər yaranır. Bundan əlavə, ixrac gəlirlərinin bölüşdürülməsi və istifadəsində müəyyən problemlər müşahidə olunmaqdadır. Ona görə də son dövrlər ixrac yönümlü istehsalla bağlı həyata keçirilən siyasətdə yüksək texnologiyalı və innovasiyalara əsaslanan, ekoloji cəhətdən təmiz sahələrin inkişafına xüsusi diqqət yetirilir. Bu isə rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasının başlıca şərtlərindəndir.

Qeyd etmək lazımdır ki, innovasiyalara əsaslanan ixrac yönümlü iqtisadiyyatın formalaşdırlması xarici ticarət əlaqələrində baş verən kəskin dalğalanmaların qarşısını almağa imkan verir. Bununla əlaqədar olaraq, bütün istiqamətlərdə və inkişaf vektorlarında iqtisadi təhlükəsizliyin təmin edilməsi məsələsi aktuallaşır. Deyilənlər onu göstərir ki, davamlı inkişaf prinsipləri əsasında ixracyönümlü modellərin öyrənilməsi müasir şəraitdə ölkənin iqtisadi siyasətinin korreksiyası üçün böyük əhəmiyyət kəsb edir [3, s.62]. Bu baxımdan iqtisadi artım təkcə təbii ehtiyatlara deyil, həm də mövcud elmi-texniki potensiala, insan kapitalına əsaslanmalıdır.

Beləliklə, qeyri-neft sahələrində ixrac yönümlü istehsal və iqtisadi artım arasında əlaqənin konseptual modelinin təhlilinə əsaslanaraq aşağıdakı istiqamətlərin həyata keçirilməsinin zəruriliyini qeyd etmək olar: qeyri-neft iqtisadiyyatında ixracyönümlü xammal sekto-

**AUDİT 2023, 2 (40), səh. 67-73.**
**AUDIT 2023, 2 (40), pp. 67-73.**
**АУДИТ 2023, 2 (40), стр. 67-73.**

runun inkişafından emal sənayesinin inkişafına və idxalı əvəzetmə proseslərinə istiqamətlənmə; konkret istehsal sahələri və subyektlər səviyyəsində innovativ fəaliyyət üçün stimulların yaradılması; insan kapitalının məhsuldarlığının yüksəldilməsi hesabına iqtisadiyyatın səmərəliliyinin artırılması; rəqabətin inkişafına təkan verən siyasətin həyata keçirilməsi üçün əlverişli mühitin yaradılması; əhalinin rifahının və həyat səviyyəsinin yüksəlməsi, gəlirlərin diferensiallaşmasının və təbəqələşməsinin azaldılması və s.

## YEKUN

Araşdırmalar göstərir ki, istehsal sferalarında geniş təkrar istehsal və iqtisadi artımın stimullaşdırılması məqsədilə effektiv mexanizmin formalaşdırılması keyfiyyət dəyişikliyi olmadan həyata keçirilə bilməz. Çünki keyfiyyət təkcə kəmiyyət artımı deyil, həm də istehsalın səmərəliliyini yüksəldən əsas amillərdəndir. İqtisadi artımın stimullaşdırılmasının effektiv mexanizmi həm yüksək templərə, həm də inkişafın sosial-iqtisadi keyfiyyətinə yönəldilir. Bu baxımdan iqtisadi artımın səmərəliliyinin yüksəldilməsi üçün bir-biri ilə əlaqəli aşağıdakı tədbirləri önə çəkmək olar: istehsalın, gəlirin və tələbin qarşılıqlı əlaqəsinin bərabərhüquqlu mexanizminin formalaşdırılması [5, s.52]; insan kapitalının daha səmərəli istifadəsi; rəqabətin inkişafı; dünya iqtisadi əlaqələrində ölkənin iştirak səviyyəsinin artırılması; davamlı iqtisadi artıma nail olmaq üçün istehsal fəaliyyətinin genişləndirilməsinə investisiya qoyuluşunun artırılması; gəlirliliyi təmin edən müvafiq makroiqtisadi şəraitin formalaşdırılması və s.

Beləliklə, qeyr-neft sektorunda iqtisadi artımın stimullaşdırılmasının effektiv mexanizminin formalaşdırılması sosial-iqtisadi baxımdan keyfiyyət dəyişikliklərinin təmin edilməsinə yönəldilməlidir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
2. Gənciyev G.Ə. İxrac ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətləri. Bakı: “Kooperasiya” 2003. 128 s.
3. Дубков С.В. Модели и методы устойчивого инновационного развития экспортоориентированных предприятий. Минск: Белпринт, 2014. 243 с.
4. Манин П.В. Механизм управления экспортным потенциалом промышленных предприятий // Вестник ВУиТ. 2015. №3 (34). с. 233.
5. Фатеева Т.Н. , Видасова В.В. Анализ экспорта продукции и его влияние на финансовые результаты // Сборник научных трудов Sworld. Том 19. 2015. № 1 (38). с. 50-56.
6. Шалдаева Л.И. Роль экспортного потенциала в социально-экономической системе // Сборник научных трудов ВНИИОК. 2014. №7. с. 639-643.
7. www.stat.gov.az

**AUDİT 2023, 2 (40), səh. 67-73.**
**AUDIT 2023, 2 (40), pp. 67-73.**
**АУДИТ 2023, 2 (40), стр. 67-73.**

*Narmin Ehtibar Hasanova,*
*Ph.D. Student,*
*Ganja State University,*
*E-mail: nermin.hesenova@gdu.edu.az*
*© Hasanova N.E., 2023*

# THE ROLE OF EXPORT-ORIENTED PRODUCTION IN THE DEVELOPMENT OF THE NON-OIL ECONOMY

## A B S T R A C T

**The purpose of the research –** determining the role of export-oriented production in the development of the non-oil economy.

**The methodology of the research** – scientific summarization, analysis, synthesis, comparison, etc. research methods were used during the performance of research work.

**The practical importance of the research** – the development of export potential through the international integration process, including the determination of parameters, factors and resources for the production of export-oriented goods, is considered one of the priorities of non-oil sectors. In this regard, the main goal of structural changes in the non-oil sector in accordance with modern demands is to ensure the country`s organic entry into the international distribution system and maximum useage the of export potential.

**The results of the research –** research was conducted to determine the role of export-oriented production in the non-oil economy and directions for stimulating growth in the non-oil economy were proposed.

**The originality and scientific novelty of the research –** determining the development trends of the non-oil sector and the role of export-oriented production areas in the development of the non-oil economy.

**Keywords:** economic growth, export, competitive production, integration, trade turnover, diversification.

**AUDİT 2023, 2 (40), səh. 67-73.**
**AUDIT 2023, 2 (40), pp. 67-73.**
**АУДИТ 2023, 2 (40), стр. 67-73.**

*Гасанова Нармин Этибар кызы,*
*докторант,*
*Гянджинский Государственный Университет,*
*E-mail: nermin.hesenova@gdu.edu.az*
*© Гасанова Н.Э., 2023*

# РОЛЬ ЭКСПОРТО-ОРИЕНТИРОВАННОГО ПРОИЗВОДСТВА В РАЗВИТИИ НЕНЕФТЯНОЙ ЭКОНОМИКИ

## Р Е З Ю М Е

**Цель исследования** – определение роли экспорто-ориентированного производства в развитии ненефтяной экономики.

**Методология исследования** – в ходе исследования использовалисъ методы научного обобщения, анализа, синтеза, сравнения.

**Практическая значимость исследования** – развитие экспортного потенциала в условиях международной интеграции, в том числе определение параметров, факторов и ресурсов производства экспорто-ориентированной продукции, считается одним из приоритетов деятельности ненефтяных секторов. С этой точки зрения основной целью структурных преобразований ненефтяного сектора в соответствии с современными вызовами является обеспечение органичного вхождения страны в международную систему сбыта и максимальное использование экспортного потенциала.

**Результаты исследования** – проведено исследование по определению роли экспорто-ориентированного производства в ненефтяной экономике и предложены направления стимулирования роста ненефтяной экономики.

**Оригинальность и научная новизна исследования** – определение тенденций развития несырьевого сектора и роли экспорто-ориентированных производственных направлений в развитии несырьевой экономики.

**Ключевые слова:** экономический рост, экспорт, конкурентоспособное производство, интеграция, товарооборот, диверсификация.

*Məqalə redaksiyaya daxil olmuşdur: 28.02.2023*
*Təkrar işləməyə göndərilmişdir: 07.03.2023*
*Çapa qəbul olunmuşdur: 17.03.2023*

*The date of the admission of the article to the editorial office: 28.02.2023*
*Send for reprocessing: 07.03.2023*
*Accepted for publication: 17.03.2023*

*Дата поступления статьи в редакцию: 28.02.2023*
*Отправлено на повторную обработку: 07.03.2023*
*Принято к печати: 17.03.2023*